# Tariximizin şanlı səhifəsi

**Azadlıq, müstəqillik əldə etmək, dövlətçiliyi qoruyub saxlamaq, onu möhkəmləndirmək hər bir xalqın arzusu, nicat yoludur. XX əsrdə iki dəfə tarixi şərait nəticəsində müstəqil Azərbaycan dövlətinin yaranması və inkişafı üçün imkanlar meydana gəlmişdir. Birinci dəfə əsrin əvvəllərində Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yarandı, 23 ay yaşamasına baxmayaraq, demokratik və mütərəqqi islahatlar həyata keçirilməsinə nail olundu. Xalqımız XX əsrin sonunda yenidən öz dövlət suverenliyini bərpa etdi, müstəqil Azərbaycan Respublikası yarandı.**

Azərbaycan xalqı, onun dövləti bu gün ümummilli liderimizin ideyalarından bəhrələnir, onun müəyyənləşdirdiyi prinsipləri rəhbər tutur, tövsiyə etdiyi istiqamətdə inamla irəliləyir. Müstəqil dövlət qurmaq xoşbəxtliyi yalnız güclü şəxsiyyət, qüdrətli lider yetişdirmiş xalqlara nəsib olur. Bu, tarixin sınağından çıxmış gerçəklikdir. Xalqı vahid milli ideya ətrafında birləşdirməyi bacaran lider onu öz müqəddəs arzularına qovuşdurmağa qadirdir. Ulu öndərimiz Heydər Əliyev məhz belə bir nadir şəxsiyyət və milli lider kimi müstəqilliyimizi möhkəmləndirdi. Azərbaycanı bəlalardan qurtardı, onun dövlətçiliyini, suverenliyini qoruyub saxlaya bildi.

Ümummilli liderimizin 1993-cü ildə xalqın təkidli xahişləri ilə siyasi hakimiyyətə qayıdışı Azərbaycanı milli müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Bununla da ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başladı. Azərbaycanın dövlət müstəqilliyi hər cür daxili və xarici təhlükələrdən qurtuldu. Ölkəmiz müstəqil inkişaf yoluna başladı. Azərbaycanı, onun dövlət müstəqilliyini Heydər Əliyev dühası, zəngin dövlətçilik təcrübəsi, siyasi uzaqgörənliyi, Azərbaycan xalqına sonsuz məhəbbəti xilas etdi.

Ulu öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən milli ordunun formalaşdırılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən cəbhə xəttində vəziyyəti sabitləşdirmək üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, nəhayət, 1994-cü ilin mayında atəşkəs əldə edildi. Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsini böyük tarixi nailiyyət, xalqımızın əvəzsiz sərvəti adlandıran ulu öndərimiz həyat təcrübəsindən bilirdi ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətin və mürəkkəb vəzifədir. Tale elə gətirdi ki, bu şərəfli tarixi missiyanı da məhz Heydər Əliyev yerinə yetirdi. Əslində müstəqil dövlətçiliyimizin həqiqi tarixi, dönüşü məhz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə xalqın və Vətənin taleyi üçün məsuliyyəti öz çiyinlərinə götürdüyü vaxtdan başlayır. Bu ötən illər ərzində ümummilli liderimizin hansı maneə və təhlükələri dəf etdiyi, müstəqilliyimizi, dövlətçiliyimizi necə məharətlə, qətiyyətlə qoruduğu, inkişaf etdirdiyi təkcə xalqımıza deyil, bütün dünyaya məlumdur. Sabitliyin bərpa olması, dövlətçilik ənənələrinin yaradılması və möhkəmlənməsi, həmçinin dünya və regional əhəmiyyətli transmilli layihələrin reallaşması ümummilli liderimizin danılmaz xidmətlərinin, müstəqilliyimizin əbədiliyinin ciddi, eləcə də etibarlı əsaslara söykənməsinin nəticəsidir.

Müstəqil Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biridir. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasının milli inkişafdakı misilsiz əhəmiyyəti bugünkü intensiv sosial-iqtisadi inkişaf yolunda daha qabarıq görünür.

Ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev əminliklə deyirdi: "Müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik islahatlar sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır".

Müstəqil Azərbaycanın sürətli inkişafı Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti və bu kursun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi sayəsində mümkün olub.

Qürur hissi keçiririk ki, Prezident İlham Əliyevin bütün sahələrin inkişafı üçün qətiyyətli addımları müstəqilliyimizin daha da möhkəmlənməsinə xidmət edir. Müstəqil Azərbaycan günbəgün tərəqqi edir, dünyanın qüdrətli ölkələrindən birinə çevrilir.

Dövlət müstəqilliyimizin bərpasından ötən 30 il ərzində ən böyük taleyüklü hadisə isə torpaqlarımızın erməni daşnaklarından azad edilməsi oldu. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, sərkərdəlik məharəti sayəsində Azərbaycanın ən böyük problemi həll edildi. Azərbaycanın yaşayış məntəqələrinin işğalına son qoyuldu, 44 günlük Vətən müharibəsində Ermənistan ordusu tamamilə məhv edildi. Ölkəmizə qarşı ərazi iddiasına düşənlərin layiqli cavabı verildi.

Bu gün işğaldan azad olunmuş ərazilərdə geniş bərpa və quruculuq işləri aparılır. Çox keçmədən o yerlər cənnət guşəyə çevriləcək.

Azərbaycanın müstəqilliyi əbədi, dönməz və sarsılmazdır. Ölkəmiz bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilmişdir.

**Rəsul BAYRAMOV,**
**"Səyyar-A" MMC-nin direktoru.**

Respublika .- 2022.- 27 may.- S.11.